Doğrudan da zəmanəsinin fenomen şəxsiyyətlərindən olan Nehrunun aforizm kimi səslənən deyimində çox böyük məna var. Həqiqətən də, kim öz keçmişini unudarsa, gələcəyə nikbin inamı olmazsa, o, sözsüz ki, məhvə məhkumdur. Biz öz tariximizi, zaman-zaman qonşularımız - mənfur hayların əli ilə başımıza gətirilən bəlaları yaddaşımızdan silməməli, onu gələcək nəsillərə olduğu kimi, tam çılpaqlığı ilə təqdim etməliyik.



# VƏTƏN DAŞI

## Və yaxud haylar sonrdan necə ermənİyə çevrildi...



**MÜRSƏL İRƏVANLI,**
**Yazıçı-publisist**

"Gələcək keçmişin üzərində qurulmalıdır. Əgər biz insanlar keçmişi yaddan çıxartsaq, onunla əlaqəni birdəfəlik kəssək, onda şübhəsiz ki, həyat adlanan bir ağacımızı kökündən qurudub məhv etməyə səbəb olarıq"

**Cəvahirləl Nehru**

Yüzilliklər boyu adlarının əvvəlinə "erməni" yarlığı calaq edən haylar öz çirkin əməllərindən hələ də əl götürmək istəmir, vaxtaşırı suyu bulandırmağa cəhd göstərirlər. Törətdikləri çeşid-çeşid cinayətləri, milli qırğınları dana-dana gəlirlər. Dünyaya yalan satmaqla dolanırlar. Yalanı özlərinə bayraq edən millət utanmadan, xəcalət çəkmədən Qarabağdan, Naxçıvandan, Bakıdan, Dərbənd-dən, Killikiyadan, "Şərqi və Qərbi Ermənistan"-dan və başqa məkanlardan tüstülənə-tüstülənə bəyanatlar verir, şivən qoparırlar. Atalar sözündə deyildiyi kimi, "öz gözlərindəki tiri qoyub özgə gözlərində tük axtarırlar". Millət nə qədər vicdansız olar, ilahi?! Onları qınamırıq, çünki əcdadlarımızdan belə tərbiyə alıblar. Amma öz hərəkətlərindən, əl-qol atmalarından belə nəticə çıxartmaq olar ki, mühit yamanca sıxır binəvaları. Bunu başa düşən də var, düşməyən də, elə "bizim torpağımız, dövlətimiz" deyə-deyə buxarlanıb yox olacaqlar, inşallah.

Buna baxmayaraq, hayların millətimizə qarşı törətdikləri tarixi cinayətlərin, onun fəsadlarının ağrı-acısından nə qədər yazılsa da, yenə azdır.

...Xərçəng xəstəliyinin kəskin formasına mübtəla olmuş, dəhşətli ağrılara tab gətirməyən və yatağında vəhşi heyvansayağı bağırmaqla öz yaxınlarını və hətta qonşularını da təngə gətirmiş I Pyotr (1682-1725) 28 yanvar 1725-ci ildə (ölümünə 30 gün qalmış) Şərq məsələsinə dair son qərarını verərkən demişdir:

"...Bizə xristianların xristianlığı himayə etmək arzusunu rədd etmək olmaz, çünki onlar da bizim soyumuzdandır...". Bundan əvvəl isə Pyotr Rusiya üçün vacib olan üç əsas məqsədə xidmət edən plan işləyib hazırlamışdı: Baltik və Qara dənizlərə çıxmaqla Polşanı zəbt etmək planını. Ölməzdən əvvəl bu planlardan yalnız birini həyata keçirə bildi və Niştat sülh müqaviləsinə əsasən Baltik sahillərinə sahib oldu. Baxmayaraq ki, 1699-cu ildə İmperator Azov qalasını da ələ keçirməyə müvəffəq oldu, lakin 1714-cü ildə onu yenidən türklərə qaytarmaq məcburiyyətində qaldı.

I Pyotrun sonrakı məqsədlərinin həyata keçirilməsi mərhələ-mərhələ sələfləri tərəfindən icra olundu. II Yekaterinanın (1762-1796) dövründə çarizmin işğalçılıq siyasəti yeni mərhələyə qədəm qoydu. Onun idarəçiliyi nəticəsində Polşa Rusiya, Avstriya, Prussiya arasında parçalandı və öz varlığını tamamilə itirmiş oldu. 1774-cü ildə Kiçik Kaynar sülh müqaviləsinə əsasən keçmiş Osmanlı sərhədləri Dnestr sahillərinədək uzandı. Lakin çox keçmədən Krım xanlığı da ruslar tərəfindən zəbt olundu və Qara dənizin Şimal hissəsi çarlığın təsiri altına düşdü. Beləliklə, Rusiya bu bölgədə hegemonluğunu nümayiş etdirməklə Qafqaz və Balkan ölkələrini də öz caynağına keçirməyin yollarını axtarırdı.

Yeri gəlmişkən qeyd edək ki, Qafqaz siyasətində çarizm hay faktorundan məharətlə istifadə edirdi. Çünki haylar hələ Rusiyanı tanımazdan əvvəl "milli qurum yaratmaq" məsələsini Avropa ölkələrinə çıxarmaq məsələsini qarşılarına məqsəd qoymuşdular. Eçmiadzin kilsəsinin arxivində saxlanılan sənədlərlə tanış olan hər kəsə aydın olar ki, "erməni məsələsi"nin Avropa dövlətlərinə daşıyıcısı Qarabağın Xaçın məliklərinin qabaqcıl nümayəndəsi İsrael Ori olmuşdur. Onun mənsub olduğu Proş nəsli üst-üstə 600 ildir ki, türk millətinə qənim kəsilib.

1659-cu ildə anadan olan İsrael Ori öz nəcabətinin ənənəsini davam etdirmək yolunu tutmuşdu. Azərbaycanda yaşayan bir ovuc hay 1673-cü ildə Avropaya Patriarx Yakovun başçılığı ilə dini nümayəndə göndərməklə əsas məqsəd Avropa ölkələrindən Azərbaycana qarşı haylara kömək xahişi etməkdən ibarət idi.

12 yaşlı İsrael Ori də atası ilə nümayəndələr arasında olub. Atası İstanbul yaxınlığında qəflətən ölüb. Xaricə yollananlar uşağı özləri ilə aparmalı olurlar. İsrael öncə Venetsiyada, sonra isə Fransada məskunlaşır. 12 ildən artıq Fransada yaşayan Ori xüsusi hərbi məktəbdə təhsil alaraq kiçik zabit rütbəsinə yüksəlir. O, Avropa monarxları, Almaniya kilsə xadimlərini və Roma Papasını məzlum hayları türklərin zülmündən xilas etmək üçün" Güney Qafqaza və İrana hərbi yürüş etməyə qızışdırır. Lakin onlar Oriyə başa salmağa çalışırdılar ki, adıçəkilən regionlara həmsərhəd olmadıqlarına görə haylar bu məsələnin həllini tapmaqda Rusiyaya müraciət edə bilərlər. Bunun üçün isə çardan Avropa qoşunlarının öz ərazisindən buraxılmasına təminat almağı məsləhət görürlər. Bu məqsədlə də Ori 1709-cu ildə Peterburqa gələrək, imperatorla görüşüb Rus dövlətinə belə yürüşə icazə verməyi, özünün də buna kömək göstərməsini bir neçə hay adından xahiş etmişdir. I Pyotr görüş zamanı bildirib: "Mən bu işi təkbaşına da görə bilərəm. Sən bizim imperiyaya başqa cür kömək etsən, daha yaxşı olar. İrəli sürdüyün məsələləri özümüz yoluna qoyarıq...".

Daha sonra çar İsrael Orini həvəsləndirmək və ondan bir vasitə kimi istifadə etmək məqsədilə demişdi: "Siz hərbiçisiniz, mən sizi rus ordusunda xidmət etməyinizi təklif edirəm və sizi polkovnik rütbəsinə layiq görürəm. Ümidvar olduğumu bildirirəm ki, bu etimadı öz xalqımıza məhəbbətiniz xatirinə doğruldacaq və rus ordusuna vicdanla xidmət edəcəksiniz. Bizim qarşıda sizinlə birlikdə görəcəyimiz işlər hələ çoxdur".

Bir qədər sonra imperator onu İran və Azərbaycan ərazisinə casus məlumatı toplamaq üçün göndərir. Qısa müddətdə Səfəvi sarayına yol tapan İsrael Ori İran şahı və xüsusən Azərbaycan haqqında geniş məlumat toplaya bilir. O, çara ünvanladığı məktubunda yazırdı: "...Xüsusən Azərbaycan hüdudlarında 13-16 məntəqədə rusların hərbi istehkamını qurmaq vacibdir. İlk öncə erməni hərbiçiləri ilə birlikdə neft səltənəti olan Bakını mühasirəyə almaq lazımdır ki, ətrafdakı xanlar güc toplaya bilməsin. Şamaxı tutulduqdan sonra birləşmiş rus-hay qoşun hissələri müxtəlif istiqamətlərdən hücuma keçməlidir. Gəncə, Pəmbək, Zəngəzur, Naxçıvan və xüsusən Qarabağ alınmalıdır. Şamaxı "erməni torpaqlarının giriş qapısıdır". Bu qapının açarı tezliklə, mütləq bizə məxsus olmalıdır. Buranın yerli əhalisi, onların ruslara münasibəti haqqında gələcək məktublarımda sizə ətraflı məlumat verəcəm".

*(Ardı var)*